**AZƏBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI**

# QƏRAR
**№ 52-2**

**Bakı şəhəri** **10 aprel 2019-cu il**

**Azərbaycan xalqının Ümummilli Lideri, müasir dövrün görkəmli siyasi xadimi, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" adlı məqalə müsabiqəsinin keçirilməsinə hazırlıq barədə**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ənənəvi olaraq hər il Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" adlı məqalə müsabiqəsi keçirir. Bu il müsabiqə Quba-Qusar regionunda (Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonları) tam orta məktəblərin 9-11-ci sinif şagirdləri arasında keçiriləcəkdir. 2019-cı ilin 1 – 30 aprel tarixləri ərzində "Qadınlar dövlətimizin, dövlətçliliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" adlı məqalə müsabiqəsinə start verilmişdir. Müsabiqənin keçirilməsində əsas məqsəd Ümummilli Lider, Ulu Öndər Heydər Əliyevin Azərbaycan qadını haqqında söylədiyi müdrik fikir və tövsiyələri bu gündə dövlət qadın siyasətinin inkişaf istiqamətlərinin proqramı kimi şagirdlər arasında təşviq etmək, istedadlı şagirdlərin yaradıcılıq imkanlarının aşkar olunmasına şərait yaratmaqdır.

"Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" adlı məqalə müsabiqəsininkeçirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A A L I R**

1. Azərbaycan xalqının Ümummilli Lideri, müasir dövrün görkəmli siyasi xadimi, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" adlı məqalə müsabiqəsinin keçirilməsinə hazırlıq barədə məlumat nəzərə alınsın.
2. Müsabiqənin əsasnaməsi və iştirakçılar üçün anket forması Komitənin internet saytında yerləşdirilsin.
3. Qərarın icrası Qadın problemləri və gender məsələləri şöbəsi tərəfindən təmin edilsin.
4. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Sədaqət Qəhrəmanovaya və aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Hicran Hüseynova**